# Ölkə başçısının ən sadiq silahdaşı, milyonlarla azərbaycanlının ümidi

**Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyası və müdrik siyasi kursu, Prezident İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan nə qədər çətin və keşməkeşli olsa da, müasir həssas geosiyasi situasiyada regionun hərbi-siyasi və iqtisadi güc mərkəzinə çevrilə bilib. Qütbləşmənin dərinləşdiyi hazırkı reallıqda bu, faktiki olaraq mümkünsüz görünsə də, hətta Azərbaycana münasibətdə açıq qərəz nümayiş etdirən beynəlxalq subyektlər belə cənab İlham Əliyevin yaratdığı bu reallığı qəbul edir, ölkəmizi tam suveren diktə sahibi kimi etiraf edir. Yəni əminliklə demək olur ki, Azərbaycan dövləti tarixin heç bir dövründə bu qədər güclü olmayıb. Bu reallıqların təməlində isə Ulu Öndər Heydər Əliyevin siyasi kursunun davamlılığı dayanır. Azərbaycan xalqını zəfərdən zəfərə, inkişafa və tərəqqiyə aparan bu müqəddəs yolun davamlılığında isə Ulu Öndərin layiqli davamçısı kimi cənab İlham Əliyev şəxsiyyəti və onun idarəetmədə ən yaxın və ən sadiq silahdaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti həlledici rola malikdir.**

Xalqımızın şərəfli inkişaf tarixinə nəzər salsaq, nəinki Azərbaycan tarixində, bütövlükdə regionumuzda qadının, xüsusən müsəlman xanımın cəmiyyətin həyatında, milli-mənəvi dəyərlərin müdafiəsində, habelə qlobal xarakterli fəaliyyətlərdə, ən əsası isə dövlət idarəetməsində Mehriban xanım Əliyeva qədər yüksək zirvəni fəth edən, irs və iz qoymuş ikinci nümunə yoxdur. Özü də Azərbaycanın çox tanınmış, milli genefondumuzun qızıl şəcərəsi sayılan bir nəslin nümayəndəsi olan Mehriban xanımın qətiyyətli mövqeyə malik vətəndaş kimi xidmətləri onun çox gənc yaşlarına təsadüf edir. Belə ki, Mehriban xanım ötən əsrin 80-ci illərində, həyat yoldaşı cənab İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun müəllimi olarkən, Moskvada yaşadığı zaman, ailənin böyüyü - Ulu Öndər Heydər Əliyevin qərəz, həsəd və düşmənçiliklə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən heç bir əsaslandırma olmadan uzaqlaşdırılmasının ardınca Ümummilli Liderin ətrafında ona sədaqətlə bağlı qalan çox azsaylı cəsarətli insanlardan biri olmuşdu. Elə həmin dövrlərdə cənab İlham Əliyevin özü də dönməz milli mövqeyinə görə Qorbaçovun rejiminə təhdid hesab edildiyi üçün işdən çıxarılaraq təzyiqlərlə üzləşərkən onun ən yaxın silahdaşı kimi Mehriban xanım əsl Azərbaycan qadını və ailə dəyərlərinin mücəssəməsi olaraq bu şərəfli mübarizədə daim möhtərəm Prezidentimizlə bərabər yürümüşdür. Ulu Öndər Bakıya qayıtdıqdan sonra elə dahi Liderin sayəsində əli çörəyə çatmış bir sıra şəxslər o zamankı hakimiyyətin təhriki və öz cılızlıqları ilə nankorluq edən zaman, O, Bakıda təhlükələrlə üz-üzə qalanda, fəaliyyətinin ağır Naxçıvan dövründə Onun əsas silahdaşı yenə də cənab İlham Əliyev idi.

**(davamı 5-ci səhifədə)**



# Ölkə başçısının ən sadiq silahdaşı, milyonlarla azərbaycanlının ümidi





(əvvəli 4-cü səhifədə)

1993-cü ildən, xalqın haqq-ədaləti bərpa etdiyi dövrdən isə Mehriban xanım Əliyevanın timsalında Azərbaycan xalqı ailə ənənələrimizin layiqli qoruyucusu, milli dəyərlərimizin etibarlı müdafiəçisini görür.

Mehriban xanım Əliyeva 90-cı illərin çətin dövrlərində, 1995-ci ildə təsis etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondu ilə milli incəsənətimizin inkişafı, təbliği, xarici ölkələrdə daha geniş tanıdılması, Azərbaycan xalqının dünya mədəniyyətinə inteqrasiyası, yeni beynəlxalq əlaqələrin formalaşması məsələlərinin həyata keçirilməsi üzrə çoxşaxəli fəaliyyəti ilə bu sahədə faktiki dövlət siyasətinin hərəkətverici qüvvəsinə çevrildi. Mehriban xanım Əliyeva 2003-cü ildən Birinci xanım kimi proseslərdə birbaşa fəal rol almaqla, cəmi bir il sonra, 2004-cü ildə isə Heydər Əliyev Fondunu təsis etməklə bütövlükdə müasir Azərbaycanın dövlətçilik və fikir tarixində yeni səhifə başladı. Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunu vahid azərbaycançılıq ideyası və milli maraqların kökündə dayanan əsas amil - Ulu Öndərin zəngin irsinin, milli dövlətçilik ideyalarının təşviqi, gələcək nəsillərə çatdırılması, xalqımızın milli-mənəvi dəyərlərinin, ənənələrinin təbliği, ölkəmizin sosial-iqtisadi inkişafına töhfə vermək məqsədilə yaratmışdı.

Onun hər bir məsələyə yaradıcı münasibəti, insanları vahid məqsəd naminə səfərbər etmək bacarığı, humanizmi və səmimiyyəti ilə Mehriban xanım cənab İlham Əliyevin rəhbərliyi ilə sosial rifahın, mədəni inkişafın dəstəklənməsinə, humanizm, mərhəmət və birlik ideallarının reallaşmasına yönələn çoxsaylı qlobal miqyaslı təşəbbüslərin ön sırasında qərarlaşmağı bacardı. Xüsusən ictimai-siyasi və sosial zərurətdən doğan reallıqda elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafı, sosial müdafiənin gücləndirilməsi, ekoloji mühitin yaxşılaşdırılması, informasiya-kommunikasiya texnologiyalarının inkişafına görmək istədiyi və cənab İlham Əliyevin ideyalarının müəyyən etdiyi səhiyyə quruculuğu həyata keçməkdədir. Həmçinin Prezident İlham Əliyevin müəyyən etdiyi istiqamətlər rəhbər tutulmaqla sağlam həyat tərzinə - idmana marağın artırılması məqsədilə ciddi addımlar atılmış, Mehriban xanımın özünün şəxsən rəhbərlik etdiyi Gimnastika Federasiyası bütövlükdə Azərbaycan idman hərəkatında lokomotivə çevrilmişdir.

2017-ci ilə qədər ölkənin ictimai-siyasi həyatında birinci xanım institutunun Azərbaycan tarixində ən güclü nümayəndəsi, Azərbaycan Mədəniyyət Fondu, həmçinin Heydər Əliyev Fondunun rəhbəri, Milli Məclisin deputatı kimi əhəmiyyətli rol oynamış Mehriban xanım Əliyevanın 2017-ci ilin 21 fevralında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi isə fəaliyyətinin qızıl dövrünü başlatmış oldu və dövlətimiz üçün kadr islahatlarından tutmuş müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında hərbi Zəfərlərimizə qədər bütün proseslərə köklü təsirini göstərdi.

Birinci vitse-prezident kimi sosial və humanitar istiqamətlərdə cənab Prezidentin iradəsini təmsil edən Mehriban xanımın fəaliyyətinin nəticələri ilk gündən özünü büruzə verməyə, məmnunluq doğurmağa başladı. Xüsusən aztəminatlı əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində dövlət siyasətinə məhz Mehriban xanım ölkə başçımızın iradəsinə müvafiq olaraq yeni baxış gətirdi.

Mehriban xanım Əliyevanın fəaliyyətinin digər mühüm bir mərhələsi Onun Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini təyin edilməsi ilə bağlıdır və bu müdrik təyinat Azərbaycan siyasi tarixində yeni mərhələ hesab olunmalıdır. Heydər Əliyev irsini layiqli formada yaşadan Mehriban xanımı Ulu Öndərin partiyasında ikinci şəxs təyin etməklə Prezident İlham Əliyev nəyi, necə və nə zaman etmək lazım olduğunu gözəl bildiyini bir daha nümayiş etdirdi.

Mehriban xanım Əliyevanın şərəfli fəaliyyətinin digər mühüm, eyni zamanda uğurla davam edən istiqaməti şəhid ailələri, qazilər, müharibə iştirakçıları ilə işdir. Müharibə dövründə və Zəfərimizdən sonra cənab İlham Əliyevin ən yaxın silahdaşı kimi müharibə iştirakçılarının müalicə və reabilitasiyası işi, həmçinin şəhid ailələrinin və qazilərin bütün sosial məişət yükünü çiyinlərinə götürməklə bu çətin və şərəfli vəzifənin öhdəsindən ləyaqətlə gələrək bu həssas təbəqənin tam məmnunluğunu qazanmışdır. Əlbəttə, bütün bunlar xalqın dövlətə və sonsuz inamla bağlı olduğu cənab İlham Əliyevə olan güvəninin daha da möhkəmləndirilməsinə səbəb olmaqla bərabər, cəmiyyətdə daha güclü milli birlik, milli barış ruhu və dialoq mühitinin formalaşmasında xidmətləri olmuş, istər Vətən müharibəsi, istər pandemiya dövründə xalqımızın bir nəfər kimi Müzəffər Ali Baş Komandanın ətrafında birləşməsində də özünəməxsus rola malik olmuşdu. Həmçinin Mehriban xanım Əliyeva tərəfindən cənab İlham Əliyevdən sonra ölkənin ikinci ən inanılan və güvənilən şəxsi olaraq cəbhədə işğalçılara qarşı döyüşən, şəhid olan və yaralanan əsgər və zabit valideynlərinə hərtərəfli dəstək göstərilməsi tarixi Zəfərimizi təmin edən amillərdən sayılmalıdır. Ötən dövrün yekunlarını təhlil edərkən əminliklə deyə bilərik ki, Müzəffər Ali Baş Komandanın cəbhədə və diplomatik müstəvidə müstəsna uğurlarının təməlində dayanan ən mühüm amillərdən biri, heç şübhəsiz ki, arxa cəbhənin Mehriban xanıma etibar olunması idi. Məlumdur ki, 44 günlük savaş boyu şanlı ordumuzun hər bir hərbçisi Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qələbədən-qələbəyə irəliləyərkən ailəsi Mehriban xanıma əmanət idi. Mehriban xanım Əliyeva da bu ağır, lakin şərəfli missiyanı ləyaqətlə yerinə yetirdi və əminliklə deyə bilərik ki, istər Vətən müharibəsi, istərsə də antiterror tədbirlərində arxa cəbhənin bütün sosial yükü, kədəri, qəmi, itkisi Onun çiyinlərində oldu. Mehriban Əliyeva Vətən müharibəsində 3000-ə yaxın şəhid üçün ailəsini əmanət etdiyi ana, müharibə əlilləri üçün yaralarını saran bacı, atasını, qardaşını itirmiş minlərlə şəhid ailəsi üzvü üçün güman yeridir.

Eyni zamanda bu gün Qarabağ və Şərqi Zəngəzurda uğurla davam edən böyük quruculuq və bərpa prosesində də Mehriban xanım cənab Prezidentin ən əsas silahdaşıdır.

Bütün mümkün risklərə baxmayaraq, hələ təhdidlərin mövcudiyyəti şəraitində Birinci xanım ilk dəfə kapitulyasiya aktından cəmi 6 gün sonra, 16 noyabr 2020-ci ildə olmaqla, bu günə qədər möhtərəm Prezidentlə bərabər hərbi geyimdə 40 dəfədən artıq Qarabağ və Şərqi Zəngəzura səfər etmiş, bu gün isə Qarabağ və Şərqi Zəngəzurun yenidənqurma və bərpa prosesinə töhfəsini verməkdədir.

Mehriban xanımın fəaliyyətinin ən mühüm istiqamətlərindən biri - cənab İlham Əliyevin tövsiyələrini rəhbər tutaraq milli-mənəvi dəyərlərə, humanizm prinsiplərinə sadiq olan gənc nəslin formalaşdırılması sahəsində dövlət siyasətinin icrasıdır. Məlumdur ki, gənc nəslin tərbiyəsi, vətənə, dövlətə bağlı, milli ruhlu gəncliyin formalaşdırılması cənab İlham Əliyevin siyasi kursunun mühüm həlqəsidir. Vətən müharibəsində Azərbaycan oğullarının döyüş ruhu sübut etdi ki, möhtərəm Prezident bu prosesin uğurlu həllinə nail ola bilib və milli ruhlu Azərbaycan gəncliyinin yetişməsi təmin edilib və prosesdə də dövlətimizin başçısının ən yaxın silahdaşı məhz xalq arasında böyük nüfuza malik və milli dəyərlərin layiqli yaşadıcısı hesab edilən Mehriban xanım Əliyeva olmuşdur. Sirr deyil ki, Azərbaycan xalqı üçün Mehriban xanım həm tərbiyə aldığı ailə, həm də tərbiyə verdiyi övladlarının timsalında, sözün əsl mənasında, etalon hesab edilir.

Mehriban xanım Əliyeva, eyni zamanda Azərbaycanın haqq səsinin dünyaya çatdırılması prosesində də müstəsna rol oynamış, Azərbaycan barəsində doğru-düzgün məlumatların yayılması və dövlətimizin milli maraqlarının qorunması istiqamətində ən uğurlu layihələrdən biri məhz Mehriban xanımın rəhbərliyi altında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası olmuşdur.

Bu gün Mehriban xanımın adı çəkiləndə mübaliğəsiz deyə bilərik ki, milyonlarla azərbaycanlı üçün bu ad ümid yeri, onun ölkə başçısının ən sadiq silahdaşı kimi ədaləti çarəsiz durumunda vətəndaşın güvən yeridir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev də məhz bu aspektlərə söykənərək Mehriban xanım Əliyevanın fəaliyyətini çox yüksək qiymətləndirmişdir.

Mehriban xanım Əliyevanın müəyyən etdiyi strategiya sayəsində Azərbaycan cəmiyyətinin tarixi dəyərlərə əsaslanan xeyriyyəçilik ənənələri məhz Heydər Əliyev Fondu tərəfindən nəinki Azərbaycanda, ümumiyyətlə, Cənubi Qafqazda uğurla davam etdirilir.

Mehriban xanım Əliyevanın fəaliyyətinin digər önəmli istiqamətlərindən biri mədəni irsimizin qorunması, tanıdılması və multikultural dəyərlərimizin təbliğidir. Məhz Onun təşəbbüsü ilə ölkə əhəmiyyətli mədəniyyət obyektləri inşa olunmuş, bir sıra ölkələrdə Azərbaycan mədəniyyət mərkəzləri yaradılmış, habelə beynəlxalq festivallar ölkənin mədəni həyatına yeni nəfəs vermişdir. Şanlı Zəfərimizdən sonra cənab İlham Əliyevin qəti iradəsinə müvafiq olaraq məhz Mehriban xanımın rəhbərliyi ilə çox prinsipial məsələlər olan Vaqif Poeziya Günləri və "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı bərpa olunmaqla tarixi ədalət bərqərar edilmiş, həmçinin bütövlükdə regionumuzda müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun dərinləşməsi istiqamətində həlledici addımlar atılmışdır.













dair proqram və layihələrin böyük uğurla gerçəkləşdirilməsi ilə hörmətli Mehriban xanım Əliyeva Azərbaycanın elm, təhsil, sosial və mədəni həyatında yeni səhifələr açdı.

Mehriban xanım Əliyevanın müstəsna təşkilatçılıq qabiliyyəti və rəhbərlik məharəti, yüksək səriştəsi və peşəkarlığı, böyük zəhməti və fədakarlığı sayəsində həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb", habelə "Təhsilə dəstək" layihələri çərçivəsində Azərbaycanda 100 mindən çox şagirdin təhsil aldığı 500-ə yaxın məktəb binası inşa edilmiş, 3 mindən çox məktəb təmir olunmuş və ya yenidən qurulmuş, həmçinin 40-dək uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmiş, təhsil işçilərinin sosial rifahının gücləndirilməsi, dərslərin və dərsliklərin beynəlxalq tələblərə uyğunlaşdırılması, təhsil sahəsində kadr siyasətinin tam şəffaflaşması istiqamətində köklü addımlar atılmışdı.

Mehriban xanım Əliyevanın bütün sahələrdə cənab İlham Əliyevin rəhbərliyi altında başlanan islahatların humanitar sahədə daha çevik və daha səmərəli reallaşması üçün zəmin yaratmağa yönəlmiş fəaliyyətində, o cümlədən səhiyyə sferası da xüsusi çəkiyə malik olmuş, bu sahədə ciddi layihələr həyata keçirilmiş, məhz Mehriban xanımın qayğısı ilə Ulu Öndərin

Mehriban xanım onsuz da bu təyinata qədər də səmərəli fəaliyyət əmsalı ilə ümumxalq sevgisinə nail ola bilmiş, ICESCO kimi mötəbər təsisatla qurduğu sağlam təməllərə dayanan əlaqələri, Avroviziya, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları kimi beynəlxalq tədbirlərin Azərbaycanda uğurla reallaşması kimi önəmli layihələri gerçəkləşdirməklə beynəlxalq platformada da adı ehtiramla çəkilən ictimai-siyasi xadim hesab edilirdi. Bu mənada, Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunması xalq tərəfindən böyük sevinclə qarşılanmaqla bərabər, həm də beynəlxalq ictimaiyyət tərəfindən də yüksək qiymətləndirildi.

**Bəhruz MƏHƏRRƏMOV.**